## Region təhsili

### “Yenilənən məktəblər”

# Sabirabad rayonu Qalaqayın kənd tam orta məktəbi

Təhsil müəssisələrinin bərpası və yenidən qurulması istiqamətində işlər davam etdirilir. Ötən il yenilənən məktəblərdən biri də Sabirabad rayonunun Qalaqayın kənd tam orta məktəbidir. “Azərbaycan müəllimi” “Yenilənən məktəblər” rubrikası çərçivəsində sözügedən məktəb barədə məlumatı təqdim edir: Təhsil ocağı 528 şagird yerlikdir. Tikinti işlərinə 2022-ci ilin dekabrın 1-də başlanılıb və 2024-cü il sentyabrın 9-da işlər başa çatdırılıb. Məktəbdə 21 sinif otağı, 1 məktəbəhazırlıq otağı, 3 laboratoriya, 2 əmək otağı, 3 informatika, 1 hərbi hazırlıq kabineti, kitabxana, akt zalı, yeməkxana və 540 kv. metr sahəsi olan idman zalı var.

